# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Dövlət satınalmalarının vahid internet portalından istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, onların ödənilməsi, geri qaytarılması və ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə Qaydaları”nın təsdiq edilməsi və “Açıq tender və ya kotirovka sorğusu üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən satınalmalarda iştirak haqqının məbləğinin, ödənilməsi və ondan istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 dekabr tarixli 396 nömrəli Qərarının ləğv edilməsi barədə**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət satınalmalarının vahid internet portalından istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, onların ödənilməsi, geri qaytarılması və ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. “Açıq tender və ya kotirovka sorğusu üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən satınalmalarda iştirak haqqının məbləğinin, ödənilməsi və ondan istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il

20 dekabr tarixli 396 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1520) ləğv edilsin.

3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 dekabr 2023-cü il

№ 496

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 496 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**Dövlət satınalmalarının vahid internet portalından istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, ödənilməsi, geri qaytarılması, ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə**

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 28.6-cı maddəsinin icrası məqsədilə hazırlanmışdır və dövlət satınalmalarının vahid internet portalından (bundan sonra – Portal) istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, onların ödənilməsi, geri qaytarılması, Qanunun 28.4-cü maddəsinə uyğun olaraq ödənilmiş vəsaitlərin (bundan sonra – büdcədənkənar vəsait) bölgüsü və onlardan istifadə qaydalarını müəyyən edir.

1.2. Büdcədənkənar vəsait Azərbaycan Respublikasının mülkiyyəti hesab olunur, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin sərəncamındadır və onun istifadəçisi (sərəncamçısı) dəyişdirilə bilməz.

## 2. Portaldan istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, ödənilməsi, geri qaytarılması qaydaları

### 2.1. Portaldan istifadə üçün ödənilən istifadə haqqının məbləği

Qanunun 28.1-ci maddəsinə uyğun olaraq satınalmalarda iştirakla əlaqədar portaldan istifadə etmək üçün təchizatçılar tərəfindən aşağıdakı məbləğlərdə istifadə haqqı ödənilir:

| **Sıra №-si** | **İstifadə növü** | **Məbləğ** (manatla) |
|---|---|---|
| **1** | **2** | **3** |
| **1.** | **Birdəfəlik** | |
| 1.1. | təchizatçı tərəfindən seçilmiş hər hansı bir satınalma üzrə portaldan istifadə haqqı | 25 |

| | | |
|---|---|---|
| **2.** | **İstifadə müddətinə uyğun** | |
| 2.1. | 30 gün | 120 |
| 2.2. | 90 gün | 300 |
| 2.3. | 180 gün | 550 |
| 2.4. | 365 gün | 950 |

## 2.2. Təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləği

Qanunun 28.3-cü maddəsinə uyğun olaraq, təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru, məxfi məlumatlarla əlaqəli satınalma və bir mənbədən satınalma metodu tətbiq edildiyi hallar istisna olmaqla, təchizatçılar tərəfindən təklifləri təqdim etmək üçün aşağıdakı məbləğlərdə iştirak haqqı ödənilir:

| Sıra №-si | Ehtimal olunan qiymət aralığı | İştirak haqqının məbləği: bir satınalmada iştiraka görə manatla və ya ehtimal olunan qiymətə görə faizlə |
|---|---|---|
| 1. | 5000 manatadək | 10 manat |
| 2. | 5000 manatdan 100 000 manatadək | 0,2% |
| 3. | 100 000 manatdan 200 000 manatadək | 250 manat |
| 4. | 200 000 manatdan 500 000 manatadək | 350 manat |
| 5. | 500 000 manatdan 1 000 000 manatadək | 450 manat |
| 6. | 1 000 000 manatdan 2 000 000 manatadək | 600 manat |
| 7. | 2 000 000 manatdan 5 000 000 manatadək | 1000 manat |
| 8. | 5 000 000 manatdan 10 000 000 manatadək | 1500 manat |
| 9. | 1 000 0000 manatdan yuxarı | 0,015% (10 000 manatdan çox olmamaqla) |

## 2.3. İstifadə haqqının ödənilməsi

2.3.1. Təchizatçılar tərəfindən istifadə haqqının ödənilməsi aşağıdakı qaydada aparılır:

2.3.1.1. təchizatçı gücləndirilmiş elektron imza vasitəsilə portaldan istifadə şərtlərini qəbul edərək Portala daxil olur;

2.3.1.2. təchizatçı Portaldan istifadə etmək, o cümlədən iştirak etmək istədiyi satınalmanın şərtlər toplusunu, təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə, uyğunluğa dair sənədlər toplusunu əldə etmək məqsədilə bu Qaydaların 2.1-ci bəndi ilə müəyyən edilmiş məbləğdə istifadə haqqını Portal vasitəsilə ödəyir;

2.3.1.3. təchizatçı tərəfindən ödənilmiş vəsait elektron ödəniş sistemində yaradılmış müvəqqəti hesaba daxil olduqdan sonra təchizatçıya bu barədə bildiriş göndərilir və təchizatçı ödənişin qəbul edildiyi tarixdən etibarən ödənişini etdiyi müddət və ya ödəniş edilən satınalma üçün Portaldan istifadə hüququ əldə edir.

2.3.2. Elektron ödəniş sistemində yaradılmış müvəqqəti hesab üzrə yığılmış vəsait iş gününün sonunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində açılmış müvafiq xəzinə hesabına köçürülür.

## 2.4. İştirak haqqının ödənilməsi

2.4.1. Təchizatçılar tərəfindən iştirak haqqının Portal vasitəsilə ödənilməsi aşağıdakı qaydada aparılır:

2.4.1.1. bu Qaydaların 2.3-cü bəndi ilə müəyyən edilmiş prosedurları icra edib Portaldan istifadə hüququ qazanan təchizatçı təklif təqdim etmək istədiyi satınalma üzrə bu Qaydaların 2.2-ci bəndi ilə müəyyən edilmiş iştirak haqqını Portal vasitəsilə ödəyir;

2.4.1.2. təchizatçı tərəfindən ödənilmiş vəsait elektron ödəniş sistemində yaradılmış müvəqqəti hesaba daxil olduqdan sonra təchizatçıya bu barədə bildiriş göndərilir və təchizatçı ödənişin qəbul edildiyi tarixdən etibarən həmin satınalmaya təklif təqdim etmək hüququ əldə edir;

2.4.1.3. Elektron ödəniş sistemində yaradılmış müvəqqəti hesab üzrə yığılmış vəsait iş gününün sonunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət

Dövlət Xidmətinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində açılmış müvafiq xəzinə hesabına köçürülür.

2.4.2. Təchizatçı iştirak haqqını ödədiyi satınalma predmeti üzrə Portalın imkanlarından istifadə hüququ əldə edir. Qanunun 36.1.1-ci və 36.1.6-cı maddələrinə əsasən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən təchizatçının təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

## 2.5. İştirak haqqının geri qaytarılması

2.5.1. Qanunun 28.5-ci maddəsinə əsasən ödənilmiş istifadə haqqı və həmin Qanunun 36.1.1-ci maddəsinə uyğun olaraq satınalmanın baş tutmadığı hallar istisna olmaqla, iştirak haqqı heç bir halda geri qaytarılmır.

2.5.2. Qanunun 36.1.1-ci maddəsinə əsasən satınalmanın ləğv edildiyi və həmin satınalma predmeti üzrə satınalmanın keçirildiyi ilin sonuna qədər təkrar satınalma keçirilmədiyi təqdirdə təchizatçıların müraciətinə əsasən iştirak haqqı aşağıdakı qaydada geri qaytarılır:

2.5.2.1. təchizatçı ödənişi təsdiq edən bildirişin surətini və bu Qaydalarla təsdiq edilmiş ərizə formasını dolduraraq (əlavə olunur) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir;

2.5.2.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti təqdim edilmiş sənədləri 10 (on) iş günü müddətində yoxlayır. Sənədlərdə uyğunsuzluq aşkar edildikdə uyğunsuzluğun aradan qaldırılması üçün təchizatçıya bildiriş (elektron və ya kağız daşıyıcıda) göndərir. Təchizatçı belə bildirişi aldığı gündən etibarən 5 (beş) iş günü müddətində zəruri məlumatları Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir;

2.5.2.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qəbul edilmiş ərizə və ödənişi təsdiq edən bildiriş də əlavə edilməklə, ödənilmiş iştirak haqqının geri qaytarılması barədə rəyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edir;

2.5.2.4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi qanunvericiliyə uyğun müddətdə ödənişin həyata keçirilməsini təmin edir.

2.5.3. Bu Qaydaların 2.5.2-ci yarımbəndinə əsasən iştirak haqqının geri qaytarılması Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin büdcədənkənar vəsaitləri hesabına həyata keçirilir.

2.5.4. İştirak haqqının geri qaytarılması ilə bağlı müraciətlər təqvim ili bitdikdən sonra ən geci növbəti ilin yanvar ayının son iş gününə qədər təqdim edilməlidir.

## 3. Ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə qaydaları

### 3.1. Büdcədənkənar vəsaitin formalaşdırılması, gəlir və xərclər smetasının təsdiq edilməsi

3.1.1. Büdcədənkənar vəsait satınalmaların həyata keçirilməsi üçün istifadə və iştirak haqlarından daxil olan vəsait hesabına formalaşdırılır.

3.1.2. Büdcədənkənar vəsait Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlığı Agentliyində yaradılmış xəzinə hesabına köçürülür.

3.1.3. Büdcədənkənar vəsaitin yığılması və istifadəsi gəlirlər və xərclər smetasına uyğun olaraq həyata keçirilir. Gəlirlər və xərclər smetası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 502 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə”yə (bundan sonra – Əsasnamə) uyğun olaraq hazırlanır və təsdiq edilir.

### 3.2. Büdcədənkənar vəsaitin bölgüsü və ondan istifadə istiqamətləri

3.2.1. Büdcədənkənar vəsaitin 50 faizi internet portalının istismarı, təkmilləşdirilməsi və saxlanılması ilə bağlı xərclərin ödənilməsi məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə özəl tərəfdaş arasında bağlanılmış dövlət-özəl tərəfdaşlığı haqqında müqaviləyə əsasən özəl tərəfdaşa ödənilir.

3.2.2. Büdcədənkənar vəsaitin Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən hissəsi aşağıdakı istiqamətlərə xərclənir:

3.2.2.1. işçilərin kollektiv və fərdi qaydada mükafatlandırılması;

3.2.2.2. işçilərə maddi yardım göstərilməsi.

3.2.3. Büdcədənkənar vəsaitin Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilən hissəsi aşağıdakı istiqamətlərə xərclənir:

3.2.3.1. malların (işlərin və xidmətlərin) alınması;

3.2.3.2. qeyri-maliyyə aktivlərinin alınması;

3.2.3.3. maddi-texniki bazanın yaxşılaşdırılması istiqamətində digər xərclər.

3.2.4. Bu Qaydaların 3.2.3-cü yarımbəndində nəzərdə tutulmuş vəsaitin istifadəsi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

## 3.3. İşçilərin mükafatlandırılması

3.3.1. İşçilərin kollektiv mükafatlandırılması aşağıdakı hallarda həyata keçirilir:

3.3.1.1. işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;

2.3.1.2. mühüm dövlət tapşırıqlarının vaxtında yerinə yetirilməsi;

3.3.1.3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş bayram günləri, habelə digər əlamətdar hadisələrlə əlaqədar.

3.3.2. İşçilərin fərdi mükafatlandırılması aşağıdakı hallarda həyata keçirilir:

3.3.2.1. vəzifə təlimatında nəzərdə tutulan vəzifələrin vaxtında və peşəkarlıqla yerinə yetirilməsi, səmərələşdirici təkliflər verilməsi, təşəbbüskarlıq göstərilməsi, işdə yeni forma və metodların tətbiqi, gənc mütəxəssislərə kömək göstərilməsi;

3.3.2.2. rəhbərliyin tapşırıqlarının vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;

3.3.2.3. normativ hüquqi aktların layihələrinin hazırlanmasında fərqlənmə.

3.3.3. İşçi xüsusi əhəmiyyətli vacib tapşırıqların, mürəkkəb işlərin yerinə yetirilməsi ilə əlaqədar, həmçinin layiqli işinə görə bayramlar və yubileylər zamanı iqtisadiyyat naziri tərəfindən birbaşa olaraq fərdi qaydada (birdəfəlik) mükafatlandırıla bilər.

3.3.4. İşçilərin kollektiv və fərdi qaydada mükafatlandırılması və maddi yardım göstərilməsi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavininin təqdimatı əsasında iqtisadiyyat nazirinin əmri (qərarı) ilə rəsmiləşdirilir.

## 3.4. Büdcədənkənar vəsaitin istifadəsinə nəzarət

3.4.1. Büdcədənkənar vəsaitin istifadəsinə nəzarət öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

3.4.2. Büdcədədnkənar vəsait üzrə gəlirlər və xərclər smetasının icrası barədə hesabat Əsasnaməyə uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir.

## 4. Yekun müddəalar

4.1. Bu Qaydalara əsasən işçilərə ödənilən vəsaitdən gəlir vergisi, məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta haqqı və icbari tibbi sığorta haqqı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, “Sosial sığorta haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tutulur.

4.2. Büdcədənkənar vəsaitin istifadə olunması ilə bağlı digər məsələlər Əsasnaməyə uyğun olaraq həyata keçirilir.

"Dövlət satınalmalarının vahid internet portalından istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, ödənilməsi, geri qaytarılması, ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə Qaydaları"na

**əlavə**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə

**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən iştirak haqqının geri qaytarılmasına dair**

## ƏRİZƏ

________________________________________________

(satınalan təşkilatın adı və VÖEN-i)

tərəfindən___________ tarixində elan edilmiş _________________ nömrəli satınalmada iştirak etmək məqsədilə tərəfimizdən ___________ tarixində _______ manat məbləğində iştirak haqqı ödənilmişdir (ödənişi təsdiq edən bildirişin surəti əlavə edilir). _________________ tarixində satınalan təşkilat tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 36.1.1-ci maddəsinə əsasən satınalma ləğv edilmiş və həmin predmet üzrə satınalma keçirilməmişdir. Tərəfimizdən ödənilmiş iştirak haqqının həmin Qanunun 28.5-ci maddəsinə əsasən aşağıdakı bank hesabımıza geri ödənilməsinə dair aidiyyəti üzrə göstəriş verməyinizi xahiş edirik.

Təchizatçının adı:
Təchizatçının VÖEN-i:
Bankın adı:
Bankın VÖEN-i:
Bankın kodu:
Müxbir hesab:
İBAN:
SWIFT kod:

Rəhbər ______________ ______________________________

(imza) (soyadı, adı, atasının adı)

Tarix:

M.Y.